Şuşa sakinlərinə qucaq açır...

Keçmiş məcburi köçkünlərin öz yurdlarına qayıtması sosial, iqtisadi, həm də mənəvi əhəmiyyət daşıyır

(əvvəli 1-ci səhifədə)

Hökumət bu günə qədər hər iki istiqamətdə çox mühüm işlər görüb. İlk olaraq Ermənistan və onun havadarlarının siyasi arenada təxribatçı əməllərinin qarşısı böyük qətiyyətlə alınıb. Bəzi cəhdlərə baxmayaraq, erməni silahlı qüvvələri tərəfindən işğal olunmuş ərazilərin geri qaytarılmasına görə heç bir dövlət və təşkilat Azərbaycana qarşı rəsmi surətdə hər hansısa bir addım atmadı. Çünki BMT-yə üzvlük Azərbaycan dövlətinə haqq verirdi ki, bu ali qurumun nizamnaməsinin 51-ci maddəsinə əsasən öz ərazi bütövlüyünü hərbi yolla bərpa etsin. 2023-cü il sentyabrın 19-da Azərbaycan Silahlı Qüvvələrinin Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri ilə buradakı separatçı rejim də məhv edildi və ölkəmizin konstitusiya quruluşu tamamilə bərpa edildi. Bu, həm də işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhalinin, habelə bərpa-quruculuğa cəlb olunmuş mülki işçilərin və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması idi.

Hər il olduğu kimi, 2025-ci ildə də dövlət büdcəsinin ən böyük xərclərindən biri də işğaldan azad olunmuş ərazilərin yenidən qurulmasına və bərpasına yönəlib. Belə ki, növbəti il üçün Böyük Qayıdışa dair Dövlət Proqramının uğurla həyata keçirilməsinə 4 milyard manatın ayrılması nəzərdə tutulub. Ümumilikdə isə 2025-ci il də daxil olmaqla, işğaldan azad edilmiş ərazilərin dirçəldilməsinə ayrılan məbləğin miqdarı 23 milyard manata çatacaq. Həmin məbləğ 100 yaşayış məskəninin yenidən qurulması və bərpası işlərinə xərclənir. Bu inkişaf layihəsi keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qayıtması üçün vacib addımdır və Azərbaycanın bərpa və yenidənqurma sahəsindəki uğurlarını nümayiş etdirir.

2026-cı ilin sonuna qədər 140 min nəfərin öz yurdlarına qayıtması təkcə sosial, iqtisadi deyil, həm də mənəvi əhəmiyyət daşıyır.

Uğurlu siyasətin nəticəsidir ki, Qarabağ və Şərqi Zəngəzurda intensiv olaraq keçmiş məcburi köçkünlər məskunlaşırlar. Dekabrın 4-də Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən yenidən qurulan Şuşa şəhərinə respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb. Bu mərhələdə Şuşa şəhərinə 48 ailə - 164 nəfər köçürülüb.

Doğma yurda qayıdan Şuşa sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər. Qeyd edək ki, hazırda Qarabağa və Şərqi Zəngəzura köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən ümumilikdə, 30 minə yaxın insan yaşayır.

Böyük Qayıdışın ünvanlarından olan Şuşa şəhəri işğaldan azad edildikdən sonra abadlıq və quruculuq meydanına çevirilib. Bu günə qədər Şuşada yaşayış kompleksləri inşa edilib, tarixi əhəmiyyətli tikililər, incəsənət xadimlərinin ev-muzeyləri bərpa olunub, istirahət kompleksləri və infrastruktur layihələri istifadəyə verilib.

Bu il mayın 10-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada birinci yaşayış kompleksinin açılışında iştirak edib və şəhərə köçmüş ilk sakinlərlə görüşüblər. İyirmi üç binadan ibarət, 8 hektara yaxın ərazini əhatə edən həmin yaşayış kompleksi modern üslubda tikilib. Kompleksin təməli 2021-ci il avqustun 29-da qoyulub. Burada hər kəsin rahatlığı və ehtiyacları nəzərə alınıb: 28 birotaqlı, 195 ikiotaqlı, 190 üçotaqlı, 30 dördotaqlı və 7 beşotaqlı mənzildən ibarət olan 450 mənzil sakinlərin istifadəsinə verilib.

Eyni gündə dövlət başçısı Şuşa rayonunun Turşsu qəsəbəsinin təməlini qoyub. Şuşa rayonunda Şuşa şəhərindən sonra azərbaycanlıların ən sıx yaşadığı məkanlardan biri olan Turşsu qəsəbəsi işğaldan azad edildikdən sonra yenidən canlanır. Qəsəbə şəhərdən cəmi 17 kilometr məsafədə, Şuşa-Laçın yolunun kənarında yerləşir. 1989-cu ildə burada 755 nəfər yaşayırdı və qəsəbə tibb məntəqəsi, xəstəxana, mədəniyyət evi, kitabxana, məktəb, uşaq bağçası, musiqi məktəbi var idi. Lakin 1992-ci ilin mayında düşmən təcavüzü nəticəsində bu gözəl məkan viran qaldı. Yaşayış məntəqəsində 353 ailə, 1403 nəfər qeydiyyatdadır. Yenidənqurma layihəsi çərçivəsində qəsəbənin ümumi sahəsi 126,46 hektara çatdırılacaq. Birinci mərhələdə 79,37 hektar ərazidə geniş tikinti və abadlıq işləri həyata keçirilir.

Bərpa və yenidənqurma çərçivəsində Şuşada yeni yol şəbəkəsinin qurulması da diqqət mərkəzindədir. Xankəndi-Şuşa-Laçın avtomobil yolunun yenidən qurulması layihəsi üzrə tikinti işləri davam etdirilir. Bu mühüm yol layihəsi regionun inkişafını sürətləndirmək və rahat hərəkət şəraiti təmin etmək üçün yenidən qurulur. Ümumi uzunluğu 34 kilometr olan bu strateji yol bölgənin iqtisadi və sosial həyatını canlandıracaq. İkinci texniki dərəcəyə malik yolun torpaq yatağının eni 15 metr, hərəkət zolaqlarının hər biri isə 3,75 metr olacaq. Bu layihə təkcə nəqliyyatın təhlükəsizliyini artırmaqla kifayətlənmir, həm də Şuşa və Laçının daha əlçatan olmasını təmin edərək tarixi torpaqlarımıza qayıdışın simvoluna çevrilir. Yol üzərində 2 körpü, 4 tunel və suötürücü borular inşa olunacaq. Uzunluğu 440 və 1100 metr olan birinci və üçüncü tunellərin giriş və çıxış portallarında qazma işləri yerinə yetirilib.

Üzeyir Hacıbəylinin ev-muzeyi öz doğma şəhərində Şuşada yenidən qapılarını ziyarətçilərin üzünə açıb. İllərdir işğalın izləri altında qalan bu mədəniyyət incisi Heydər Əliyev Fondunun böyük qayğısı ilə tamamilə bərpa olunaraq xalqımızın mənəvi sərvətinə çevrilib. 1959-cu ildən fəaliyyət göstərən bu ev-muzeyi işğaldan sonra talan ediləərək dağıdılmışdı. Lakin 2022-ci ilin aprelində başlanan bərpa işləri sayəsində muzeyin əvvəlki əzəməti geri qayıdıb və bu ilin 19 sentyabrında açılışı olub. Bərpa prosesində hər detal incəliklə işlənib: bünövrələrin möhkəmləndirilməsi, fasadların və dam örtüyünün yenilənməsi, daxili bəzək işləri, pəncərələrin və qapıların quraşdırılması, hətta həyətyanı sahənin yaşıllaşdırılması - hər şey dahi bəstəkarın ruhuna layiq şəkildə həyata keçirilib. Ərazidə mövcud olan daş divarlar inventarlaşdırılıb, zərif toxunuşlarla tarixi görkəminə uyğun bərpa edilib. Hətta material analizləri üçün nümunələr Türkiyədə tədqiq olunub, müasir konservasiya üsulları tətbiq edilib. Bu möhtəşəm ev-muzeyi Üzeyir Hacıbəylinin irsini yaşatmaqla, Şuşanın əbədi Azərbaycan torpağı olduğunu sübut edir.

Musa BAĞIRLI,
"Respublika".